UOT: 617.751.98-001

Bayramova H.O., Mədətli Ş.C.

# "VİSİON 2020" GÖRMƏ HÜQUQU PROQRAMI FORMATINDA GÖZ ALMASININ TRAVMALARI ZAMANI GÖRMƏ İTİLİYİ NƏTİCƏLƏRİNİN TƏHLİLİ

*Akad. Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Bakı şəh., Azərbaycan*

**Açar sözlər:** *VİSİON 2020, görmə orqanının travmaları,görmə itiliyi*

Hesablanmalara görə hal hazırda dünyada təxminən 191 milyon insan kəskin görmə zəifliyindən əziyyət çəkir. Bunlardan 32,4 milyon insan sərbəst hərəkət etməkdə çətinlik çəkir [1, 2, 3]. Bu insanların əksəriyyəti görmələrini müalicə oluna bilən və ya qarşısı alına bilən xəstəliklərə görə itirmişlər. Onların təxminən 80%-i zəif inkişaf etmiş ölkələrdə yaşayır. Belə ki, yaşadıqları mövcud şərait görmə itməsi ilə mübarizəni çətinləşdirir. Əgər müdaxilə olunmazsa bu insanların sayının 2020-ci ildə 76 milyona çata biləcəyi ehtimal olunur [4, 5]. Korreksiya oluna bilməyən refraktiv qüsurlar, katarakta, qlaukoma, diabetik retinopatiya, okulyar travma, yaşa bağlı makulyar degenerasiya korluğun əsas səbəblərindən hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatından verilən hesablanmalara görə görmə itməsinin əsas səbəbləri arasında katarakta (47,9%), qlaukoma (12,3%), yaşa bağlı makulyar degenerasiya (8,7%), buynuz qişa bulanmaları (2,1%), diabetik retinopatiya (4,8%), uşaq korluğu (3,9%), traxoma(3,6%) və onchocerciasis (0,8%) təşkil edir [6-10].

Bu qlobal məsələ ilə bağlı olaraq 1999-cu ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Beynəlxalq Korluqla Mübarizə Təşkilatı(BKMT), İngiltərə və müxtəlif ölkələrin göz sağlamlığı təşkilatlarının ortaqlığı ilə VİSİON 2020 adlı "The Right to Sight" başlığı altında proqram tərtib olunmuşdur. VİSİON 2020 proqramının əsas devizi bundan ibarətdir: "Heç kimin görmə əlili olmadığı və ya görmə əlillərinin özlərini tam idarə edə biləcəkləri bir dünya qurmaq". "VİSİON 2020" proqramında əsas məqsəd 2020-ci ilə qədər qarşısı alına bilən korluqla mübarizə aparmaq və korluğa gətirib çıxaran səbəbləri aradan qaldırmaqdan ibarətdir [11, 12].

Müxtəlif mənşəli göz travmaları da korluğun əsas səbəblərindən hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə hər il dünyada 55 mln göz travması baş verir. Göz travmaları səbəbi ilə 1,6 mln insan binokulyar, 19 mln insan isə monokulyar korluqdan əziyyət çəkir. Okulyar travmalara yanaşmanın əsasını toplanılmış dəqiq anamnez, görmə itiliyinin ölçülməsi, göz hərəkətlərinin dəyərləndirilməsi və gözün ətraflı müayinəsi təşkil edir.Vaxtında göstərilmiş ilkin tibbi yardım, oftalmoloji xidmətin düzgün təşkili, düzgün müalicə strategiyasının qurulması, əməliyyatdan sonrakı dövrdə aparılmış müalicə travma ilə bağlı görmə itməsinin azaldılmasında xüsusi əhəmiyyət daşıyır [13-15].

**Məqsəd** – göz almasının travmalarının müalicəsindən sonra alınan görmə itiliyinin nəticələrinin təhlili

**Material və metodlar**

Bizim tərəfimizdən 2018-ci ilin ilk 6 ayı ərzində akad. Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gözdaxili yad cisim olmadan qapalı və ya açıq göz travması diaqnozu ilə daxil olmuş pasiyentlər arasında tədqiqat aparılmışdır. Tədqiqata 65 pasiyent (65 göz) daxil edilmişdir. Tədqiqat üçün yalnız monokulyar travmalı gözlər seçilmişdir. Pasiyentlərin yaş həddi 21-64 təşkil etmişdirr. Pasiyentlərdən 14-ü qadın, 51-i kişi olmuşdur.

Bütün pasiyentlərdə gözün və onun əlavə aparatının ətraflı müayinəsi aparılmışdır. Pasiyentlər travmanın ağırlıq dərəcəsinə görə qruplaşdırılmışdır. ÜST tərəfindən verilən kriteriyalara görə 0,04-dən aşağı görmə korluq hesab olunur. Buna əsaslanaraq iki tədqiqat qrupu seçilmişdir: 1-ci qrupa görmə itiliyi 0,04-dən aşağı olan 28 göz, 2-ci qrupa isə görmə itiliyi 0,05-dən yüksək olan 37 göz daxil edilmişdir. Bütün gözlərdə vaxtında ilkin tibbi yardım göstərilmiş, yaranın birincili işlənməsi, travmatik kataraktanın aradan götürülməsi və konservativ müalicə aparılmışdır. Ümumilikdə 65 gözdən 36-da (55,38%) cərrahi əməliyyat, 29-da (44,62%) konservativ müalicə aparılmışdır.Birinci qrupda buynuz qişanın postravmatik irinli xorası, buynuz qişanın və konyunktivanın kimyəvi yanığı, göz almasının orta və ağır dərəcəli kontuziyası,hifema diaqnozu ilə 8 gözdə (28,57%) konservativ müalicə, buynuz qişanın və skleranın dəlib-keçən yaralanması, daxili qişaların yara ağzına prolapsı, göz almasının ağır dərəcəli kontuziyası, travmatik katarakta diaqnozu ilə 20 gözdə (71,43%) cərrahi əməliyyat aparılmışdır.İkinci qrupda postravmatik keratit, buynuz qişa və konyunktivanın kimyəvi və termiki yanığı, göz almasının yüngül dərəcəli kontuziyası, hifema diaqnozu ilə 21 gözdə (56,76%) konservativ müalicə, buynuz qişa və skleranın dəlib-keçən yaralanması, qüzehli qişanın yara ağzına prolapsı, konyunktiva və skleranın rupturası, göz almasının orta dərəcəli kontuziyası,hifema, travmatik katarakta diaqnozu ilə16 gözdə (43,24%) cərrahi əməliyyat aparılmışdır. Pasiyentlərdə ilkin olaraq yaranın birincili işlənməsi, ikinci mərhələdə travmatik kataraktaya görə cərrahi əməliyyat icra olunmuşdur.

**Nəticələr və onların müzakirəsi**

Aparılmış konservativ və cərrahi müdaxilələrdən sonra hər iki tədqiqat qrupuna daxil olan gözlərdə aşağıdakı nəticələr əldə olunmuşdur (cədvəl 1).

Cədvəl 1

**1-ci və 2-ci tədqiqat qrupuna daxil olan gözlərdə alınan görmə itiliyi nəticələri**

| Görmə itiliyi kriteriyaları | Görmə itiliyi dəyişməyən | Görmə itiliyi artan | Görmə itiliyi azalan |
|---|---|---|---|
| 1-ci tədqiqat qrupu(28 göz) | 5 göz (17,86 %) | 22 göz (78,57%) | 1 göz (3,57%) |
| 2-ci tədqiqat qrupu(37 göz) | 4 göz (10,81%) | 31 göz (83,78%) | 2 göz (5,41%) |

Qeyd etdiyimiz kimi 1-ci qrupa görmə itiliyi 0,04-dən aşağı olan 28 göz daxil edilmişdir. Bu qrupa daxil olan gözlər arasında yalnız 1 gözdə (3,57%) görmə itiliyi 0,01-dən göz önündə əl hərəkəti səviyyəsinədək azalmışdır. Həmin gözdə “Buynuz qişa və skleranın geniş məsafəli dəlib-keçən yaralanması,qüzehli qişa və şüşəvari cismin yara ağzına prolapsı” diaqnozu ilə yaranın birincili işlənməsi cərrahi əməliyyatı icra olunmuşdur. Əməliyyatdan sonra torlu qişada qopma səbəbi ilə görmə itiliyi göz önündə əl hərəkəti səviyyəsinə düşmüşdür. Qrupa daxil olan 5 gözdə (17,86%) optik mühitlərin şəffaflığının pozulması səbəbi ilə görmə itiliyində əhəmiyyətli dərəcədə artma müşahidə olunmamışdır. Qalan 22 gözdə (78,57%) isə görmə itiliyinin artmasına nail olunmuşdur. Bu pasiyentlərdə diqqətli yanaşma, müalicədə seçilmiş düzgün taktika uğurlu nəticənin əldə olunmasına gətirib çıxarmışdır.

İkinci qrupa daxil olan 37 gözdə də travmanın ağırlıq dərəcəsinə müvafiq olaraq müxtəlif nəticələr əldə olunmuşdur. Belə ki, yalnız 2 gözdə (5,41%) aparılmış müalicədən sonra buynuz qişada zədədən sonrakı çapıq səbəbi ilə görmə itiliyində azalma müşahidə olunmuşdur. 1 gözdə görmə itiliyi 0,1-dən 0,05-ə , digər gözdə isə görmə itiliyi 0,2-dən 0,1-ə qədər azalmışdır. 4 gözdə (10,81%) büllurda bulanma ilə bağlı olaraq görmə itiliyində əhəmiyyətli dərəcədə artım müşahidə olunmamışdır. 31 gözdə (83,78%) isə aparılmış uyğun cərrahi və konservativ müalicədən sonra müalicədən sonra görmə itiliyi korreksiyasız 0,5, maksimal korreksiya ilə 0,8-ə qədər qalxmışdır. Yəni, anatomik və funksional cəhətdən uğurlu nəticələr əldə olunmuşdur.

“Vision 2020” görmə hüququ proqramının təşəbbüsü 2020-ci ilə qədər qarşısı alınan və müalicə oluna bilinən korluğun aradan qaldırılması məqsədi ilə daha intensiv və sürətli fəaliyyət planının hazırlanmasıdır. Buna ilk növbədə korluğa səbəb olan əsas xəstəlikləri aşkar etməklə nail olmaq olar [16, 17].

“Vision 2020” görmə hüququ proqramının 3 əsas strategiyası var:

1) Xəstəliyin idarə olunması: Qarşısı alınan və müalicə oluna bilinən korluğun əsas səbəblərinin araşdırılması və müalicəsi üçün tədbirlər proqramının təkmilləşdirilməsi;
2) İnsan resurslarının inkişafı: Oftalmoloqların və digər oftalmoloji tibb personalının ixtisaslaşmasına dəstək vermək;
3) İnfrastruktur və müvafiq texnologiyanın inkişafı: Gözə qulluğun daha keyfiyyətli və düzgün olması üçün infrastruktur və texnologiyanın yaxşılaşdırılması.

“Vision 2020: Görmə hüququ” proqramının hədəfləri:

1) Profili yüksəltmək: Qarşısı alınan və müalicə oluna bilinən korluğun əsas səbəblərinin əhali arasında təbliğini aparmaq;
2) Yüksək səviyyəli müalicə və profilaktik proqramların təşkil edilməsi üçün dünyadakı əsas resursların öyrənilməsi və istifadə olunması;
3) Milli proqramlar çərçivəsində “Vision 2020: Görmə hüququ” proqramının 3 əsas strategiyasını planlaşdırmaq və həyata keçirtmək.

VİSİON 2020 proqramının tətbiqinin ilk 12 ilində ən ucqar və yoxsul cəmiyyətlərdə belə yüksək göz sağlamlığı xidməti təmin olunmuşdur. Bunun üçün xüsusi proqramlar hazırlanıb tərtib olunmuşdur. Qarşısı alına bilən korluqla mübarizə üçün 100-dən çox beynəlxalq plan hazırlanıb və müxtəlif qurumlar tərəfindən maliyyə dəstəyi təmin olunub. Gözün infeksion xəstəliklərində, daha çox yaşlılarda rast gəlinən göz xəstəlikləri zamanı yaranan korluqla mübarizədə əhəmiyyətli irəliləyişlər əldə olunmuşdur [18, 19]. Biz bu proqram çərçivəsində gözdaxili yad cisim olmadan qapalı və ya açıq göz travması diaqnozu ilə qəbul etdiyimiz pasiyentlərdə korluqla mübarizə naminə tətbiq etdiyimiz müalicə ilə bağlı araşdırma apardıq.

**Yekun**

Beləliklə daha ağır travmalar hesab olunan 1-ci qrupda ümumilikdə buynuz qişanın postravmatik irinli xorası, buynuz qişanın və konyunktivanın kimyəvi yanığı, göz almasının orta və ağır dərəcəli kontuziyası, hifema, buynuz qişanın və skleranın dəlib-keçən yaralanması, daxili qişaların yara ağzına prolapsı, göz almasının ağır dərəcəli kontuziyası, travmatik katarakta, həmçinin, əməliyyatdan sonrakı dövrdə torlu qişanın qopması səbəbi ilə 6 göz istisna olmaqla digər 22 gözdə uğurlu nəticələr əldə olunmuşdur.

Nəticədə yarana biləcək korluğun qarşısı alınmışdır.Belə ki, vaxtında ilkin yardımın göstərilməsi, düzgün müalicə taktikasının seçilməsi effektiv nəticələrin əldə olunmasına imkan verir.Hər bir halda məqsəd gözün anatomik tamlığı ilə yanaşı funksional qabiliyyətinin də artırılmasından ibarətdir. Belə ki, "VİSİON 2020" proqramının devizinə uyğun olaraq pasiyentlərin görmə itiliyinin artmasına nail olmaq və göz əlilliyinin qarşısını almaq əsas məqsədimizdir.

## ƏDƏBİYYAT:

1. He M., Mathenge W., Lewallen S.et al.Global Efforts to Generate Evidence for Vision 2020 // Ophthalmic Epidemiol., 2015, v.22(4), p.237-238.
2. Ackland P.The accomplishments of the global initiative VISION 2020: The Right to Sight and the focus for the next 8 years of the campaign // Indian J.Ophthalmol., 2012, v.60(5), p.380-386.
3. Mohammadpour M., Heidari Z., Mirghorbani M. et al. Smartphones, tele-ophthalmology, and VISION 2020 // Int. J.Ophthalmol., 2017,v.10(12), p.1909-1918.
4. Foster A.Cataract and "Vision 2020-the right to sight" initiative // Br. J.Ophthalmol., 2001, v.85(6), p.635-637.
5. Pizzarello L., Abiose A., Ffytche T. et al.VISION 2020: The Right to Sight: a global initiative to eliminate avoidable blindness // Arch.Ophthalmol., 2004, v.122(4), p.615-620.
6. MəmmədovaZ.Ə.,Qəhrəmanov F.S., Şamilova F.Q. və b. Görmə orqanının travmatik xəstəliklərinin strukturunda gözün yanıq xəstəliyinin yeri və onun tibb-sosial əhəmiyyəti // Azərbaycan Tibb Jurnalı, 2008,№2, s.143-145.
7. Qasımov E.M., Rüstəmova N.M. Oftalmologiyada əlilliyin birincili və ikincili proflaktikasının əsas istiqamətləri / Akad. Zərifə Əliyevanın 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konf. məq. top.: Oftalmologiyanın aktual problemləri, Bakı, 2013, s. 56-57.
8. НамазоваИ.К. к Вопросу частоты механической травмы органа зрения в группе пациентов старшего возраста в Азербайджане // Успехи геронтологии, 2014, т.27, №1, с.160-164.
9. Adepoju F.G., Ayanniyi A.A., Pam V. et al. Human resource development for Vision 2020 in developing countries: a change from absolute numbers // Eur. J. Ophthalmol., 2011, v.21(6), p.820-825.
10. Керимов К.Т., Рустамова Н.М., Керимова Нар.К. и др. теоретическая концепция о комплексной системе реабилитации инвалидов вследствие патологии органа зрения в Азербайджанской республике // Oftalmologiya, 2010, № 4, s.52-56.
11. Klauss V., Schaller UC. Tropical ophthalmology-prevention and therapyVision 2020– the right to sight // Ophthalmologe, 2004, v.101(7), p.741-763.
12. Pearce M.G., Pearce N. Addressing refractive error visual impairment: volunteer organizations alignment with Vision2020 and public health principles //Clin. Exp. Optom., 2012,v.95(6), p.583-589.
13. Lewallen S., Lansingh V., Thulasiraj R.D.Vision 2020: moving beyond blindness // Int. Health., 2014,v.6(3), p.158-159.
14. LansinghC.V., EckertA.K. VISION 2020: The Right to Sight in 7 Years? // Med Hypothesis Discov. Innov.Ophthalmol., 2013,v.2(2), p.26-29.
15. Latinović S. Global initiative for the prevention of blindness: Vision 2020– theRight to Sight // Med. Pregl., 2006,v.59(5-6), p.207-212.
16. Lim K.H. Vision 2020 and prevention of blindness: is it relevant or achievable in the modern era? // Ann. Acad. Med. Singapore, 2006,v.35(3), p.215-222.
17. Resnikoff S., PararajasegaramR.Blindness prevention programmes: past, present, and future // Bull. World Health Organ, 2001, v.79(3), p.222-226.
18. Di Stefano A.F.VISION 2020: the right to sight. A global initiative for the elimination of avoidable blindness // Optometry. 2001, v.72(10), p.619-622.
19. Du Toit R., Brian G. Mid-level cadre providing eye care in the context of Vision 2020 // N Z Med J., 2009,v.122(1291). p.77-88.

Байрамова Х.О., Мадатли Ш.Д.

# АНАЛИЗ РЕЗУЛЬТАТОВ ОСТРОТЫ ЗРЕНИЯ ПРИ ТРАВМЕ ГЛАЗ В ФОРМАТЕ ПРОГРАММЫ ПРАВО НА ЗРЕНИЕ «VISION 2020»

*Национальный Центр Офтальмологии имени акад. Зарифы Алиевой, г.Баку, Азербайджан*

**Ключевые слова:** *VISION 2020, травмы органа зрения, острота зрения*

## РЕЗЮМЕ

**Цель** - анализ результатов остроты зрения полученных после лечения при травмах глазного яблока.

**Материалы и методы**

Исследования проводились на 65 пациентах (65 глаз) с травмами глазного яблока, поступивших в Национальный Центр Офтальмологии имени акад. Зарифы Алиевой в течение первых 6 месяцев 2018 года. В исследование включены только глаза с монокулярной травмой. Пациенты были разделены на две исследовательские группы. Первая группа включала 28 глаз с остротой зрения менее 0,04, а вторая группа – 37глаз с остротой зрения, превышающей 0,05.

**Результаты**

После проведения консервативных и хирургических методов лечения в обеих исследовательских группах были получены следующие результаты: острота зрения в 1-й группе уменьшилась на 1 глазу (3,57%), не изменилась на 5 глазах (17,86%) и увеличилась на 22 глазах (78,57%); острота зрения во 2-й группе уменьшилась на 2 глазах (5,41%), не изменилась на 4 глазах (10,81%) и увеличилась на 31 глазу(83,78%).

**Заключение**

Проведенный анализ в 2-х группах исследования показал улучшение зрительных функций в 1-ой группе с тяжелыми травмами различного генеза.

Проведение четкой диагностики травмы способствует правильному и оптимальному выбору тактики лечения, что позволяет достичь более эффективных анатомических и клинико-функциональных результатов в борьбе со слепотой в формате программы право на зрение «Vision2020».


Bairamova K.O., Madatli S.J.

## ANALYSIS THE RESULTS OF VISUAL ACUITY DURING EYE TRAUMAS IN PROGRAM RIGHT TO SIGHT “VISION 2020”

*National Ophthalmology Centre named after acad. Zarifa Alieva, Baku, Azerbaijan*

**Key words:** *VISION 2020, eye traumas, visual acuity*


## SUMMARY

**Aim** – An analysis of the results of visual acuity achieved after treatment during eye trauma.

**Materials and methods**

We did research on patients with eye injury diagnosis at National Ophthalmology Centre named after acad. Zarifa Aliyeva during first 6 months of 2018. 65 patients (65 eyes) were included to the study.

Only monocular trauma eyes were selected for the study. They were divided into2 research groups. The first group included 28 eyes with a visual acuity less than 0.04, and the second group included 37 eyes with a visual acuity greater than 0.05.

**Results**

After conservative and surgical interventions the following results were obtained in the eyes included in both research groups: the visual acuity in the 1st group decreased in 1 eye (3.57%) , did not change in 5 eyes (17.86%) and increased in 22 eyes (78.57%); the visual acuity in the 2nd group decreased in 2 eyes (5.41%), did not change in 4 eyes (10.81%) and increased in 31 (83.78%) eyes.

**Conclusion**

Thus, in the eyes of the 1st study group with severe injuries of different origin traumas, except for 6 eyes, successful results were obtained in 22 eyes. Eventually, the blindness has been prevented. Providing timely aid, choosing the right treatment tactics allows us to achieve the more effective results in the fight against blindness at the Vision2020 vision law format.



## Korrespondensiya üçün:

*BayramovaHumay Oqtay qızı, akad. Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin okuloplastik və rekonstruktiv cərrahiyyə şöbəsinin həkim-oftalmoloqu*

*Ünvan: AZ 1114, Bakı şəh., Cavadxan küç., 32/15*

*Tel: (+99412) 569-09-07; (+99412) 569-09-47*

*E-mail: administrator@eye.az; www.eye.az*